Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Ədibə İsmayılova

# OXUCULARA XİDMƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ, İNNOVATİV YENİLİKLƏRİN TƏTBİQİ TƏCRÜBƏSİ

*(Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında)*

- 18036 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2016

78.38(5Aze)
İ 82

KBT Ч735.2(2A)
UOT 025.5(479.24 )

**Redaktor:** **Kərim Tahirov,**
Əməkdar mədəniyyət işçisi,
professor

**Rəyçi:** **Gülbəniz Səfərəliyeva,**
Əməkdar mədəniyyət işçisi

**İsmayılova Ə.** Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında) /Ədibə İsmayılova; red. K.Tahirov; rəy. G.Səfərəliyeva; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 56 s.

Kitabda Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi haqqında geniş şəkildə bəhs edilir. Milli Kitabxananın bu sahədəki yeniliklərini əks etdirən fotoşəkillər daha dolğun informasiya almağa kömək edir. Kitab kitabxana-informasiya mütəxəssisləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 504 35 4

© Azərbaycan Milli Kitabxanası, 2016

# OXUCULARA XİDMƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ, İNNOVATİV YENİLİKLƏRİN TƏTBİQİ TƏCRÜBƏSİ

Ölkəmizdə kitabxana sahəsinin inkişafına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi diqqəti olmuşdur. Onun respublikamıza rəhbərliyi dövründə kitabxana sisteminin inkişafı, təkmilləşməsi, bu sahənin lazımi avadanlıqlarla təchiz olunmasına ciddi diqqət yetirilib, əhəmiyyətli tədbirlər həyata keçirilib. Hazırda özünün sürətli inkişafı və modernləşmə dövrünü yaşayan Azərbaycan Milli Kitabxanasının yenidənqurma konsepsiyasının əsası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi 10 il ərzində Milli Kitabxanaya 4 dəfə səfər edən ulu öndər bu milli mənəviyyat məbədinin inkişafını daim diqqət mərkəzində saxlamışdır. Milli Kitabxananın fəaliyyətini və orada çalışan insanların əməyini yüksək qiymətləndirən ulu öndər Milli Kitabxanaya gəlişi zamanı demişdir: "Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya və burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm."

Xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəniyyət siyasətini böyük uğurla davam etdirən hörmətli prezidentimiz cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, kitab və kitabxana işinin inkişafında tamamilə yeni bir mərhələnin əsası qoyulmuşdur. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqın-

da" (2004), "Dünya ədəbiyyatı və uşaq ədəbiyyatı kitabxanası seriyasından kitabların nəşri haqqında" (2005), "Azərbaycanda kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi haqqında" (2007), "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması haqqında" (2008) imzalanan silsilə sərəncamlar və Milli Kitabxananın tamamilə yenidən qurulması, təchizatı və modernləşdirilməsi barədə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırıqları bunun bariz nümunəsidir.

Ölkəmizdə aparılan uğurlu islahatların təməlini qoyan və onu uğurla davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev cəmiyyətin informasiya təminatında kitabxanaların işinə yüksək qiymət verərək deyir: "Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyaların tətbiqini zəzuri edir". Cənab Prezidentin Sərəncamı ilə nəşr olunan kitabların tam mətnini elektron formada oxuculara çatdırmaq məqsədilə (elektron kitabxana vasitəsilə) müvafiq işlər həyata keçirilib, həmin əsərlər bir sıra aparıcı kitabxanaların veb-saytında yerləşdirilib.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" isə bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir. Bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirilmişdir. Bu gün elə bir kitabxana tapılmaz ki, orada



kompyuterlərdən, digər informasiya texnologiyalarından istifadə olunmasın.

Dünya təcrübəsi göstərir ki, kitabxanalarda innovasiyaların (yeniliklərin) tətbiqi problemləri həmişə aktual olub. "İnnovasiya" latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. İnnovasiya – yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir. Bu gün dünyada bütün dəyişikliklər və yeniləşmələrlə xarakterizə olunan müasir informasiya cəmiyyəti şəraitində kitabxanalar əhaliyə kitabxana-informasiya xidmətini təşkil edərkən ancaq ənənəvi xidmət üsulları ilə kifayətlənə bilməz. Kitabxana işinə yeni innovasiyaların tətbiqi, kitabxanaların kompyuterləşdirilməsi prosesi kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid şəraitində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi böyük maraq doğurur. Son illər Milli Kitabxanada istər iş proseslərində, istərsə də xidmət sahələrində innovasiyaların tətbiqi Azərbaycan Milli Kitabxanasını dünyanın aparıcı Milli kitabxanaları sırasına çıxarmışdır. Hazırda Milli Kitabxanada oxuculara kitabxana xidmətinin təşkili ilə əlaqədar bütün iş prosesləri tam şəkildə avtomatlaşdırılmışdır.

Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan avtomatlaşdırılmış kitabxana-informasiya sistemi VİRTUA proqramı tətbiq olunmuşdur. Buraya elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, Milli

biblioqrafiyanın və respublikanın bütün iri kitabxanalarının toplu kataloqunun yaradılması, yəni bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Milli Kitabxanada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinə 1999-cu ildən başlanmış və 2000-ci ildə kitabxanada ilk İnternet zalı istifadəyə verilmişdir. Elə həmin ildə Milli Kitabxanada ilk Tədris Mərkəzi açılmışdır. Bu mərkəzdə ilk dəfə olaraq respublikamızın kitabxana işçiləri üçün kompyuter təlimi üzrə və İnternetdə axtarış aparmaq vərdişlərinin aşılanması üzrə treninqlər təşkil olunmuşdur.

Üç illik hazırlıq işləri aparıldıqdan, beynəlxalq treninqlər keçirildikdən və lazımi mütəxəssislərin hazırlanması prosesi başa çatdıqdan sonra 2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınlaoxunan MARC-21 formatında işlənilmişdir. 2006-cı ilin mayında Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur. 2014-cü ildə Elektron Kitabxananın daha da optimallaşdırılması məqsədilə ORACLE əsasında işlənib hazırlanmış və bir neçə parametrlər üzrə axtarış aparılmasına imkan verən yeni CAMO proqramı alınaraq kitabxananın serverində quraşdırılmışdır. Bu axtarış sistemi vasitəsilə müəlliflər, sərlövhələr, predmetlər, açar sözlər, simvollar və rubrikalar, ISBN, nəşriyyatlar və nəşr yeri və s. üzrə axtarış aparılması təmin olunmuşdur. Burada həmçinin müxtəlif məlumat bazaları üzrə - kitabların və dövri mətbuat materiallarının, ümumi və diyarşünaslıq kartotekalarının və digər analitik məlumat bazalarının materialları üzrə kompleks axtarış aparılması mümkündür.

Milli Kitabxananın strukturu da tamamilə yenidən qurulmuş, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunan yeni strukturda müasir dövrün tələbləri ilə səsləşən və innovasiyaların kitabxananın işinə tətbiqi ilə əlaqədar bir sıra yeni şöbələr - "Elektron informasiya xidməti", "İnfrostrukturun təşkili və proqram təminatı", "Avtomatlaşdırma və informasiya texnologiyaları", "Elektron resursların yaradılması", "Analitik elektron məlumat bazasının təşkili", "Elektron kataloqun formalaşdırılması", "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə", "Kitabxanaların metodik təminatı" şöbələri, "Elektron resurslardan istifadənin təşkili", "Lokal şəbəkədən istifadə üzrə oxu zalı" bölmələri və bir sıra yeni şöbə və bölmələr yaradılmışdır. Yeni şöbə və bölmələrin yaradılması ilə kitabxanamızda bir çox ənənəvi iş sahələri yeni texnologiyalarla təchiz olunmuş, ənənəvi kataloq sistemi elektron kataloqla əvəzlənmiş, elektron kataloqla yanaşı elektron kitabxana yaradılmışdır.

Kitabxananın 3 dildə fəaliyyət göstərən saytı (www.anl.az) vasitəsilə oxuculara xidmət həyata keçirilir. 2015-ci ildə tamamilə yenidən tərtib olunan sayt kitabxanamızın əməkdaşları tərəfindən vaxtaşırı yenilənir, əlavə bölmələr, rubrikalar, elektron məlumat



bazaları yaradılır. Milli Kitabxananın saytından istifadə etməklə oxucular məlumat bazalarından yararlanmaq, elektron kataloqda və elektron kitabxanada axtarış aparmaq, Milli Kitabxananın nəşrlərindən istifadə etmək, eləcə də dünya ölkələrinin kitabxanalarında axtarış aparmaq imkanı əldə edirlər.

Azərbaycanda informasiya texnologiyalarının ayrı-ayrı fəaliyyət sahələrinə tətbiqinin böyük vüsət aldığı bir dövrdə Azərbaycan Milli Kitabxanasında Elektron kitabxananın yaradılmasının mahiyyəti olduqca böyükdür. Azərbaycan Milli Kitabxanasının nəzdində Elektron kitabxananın yaradılmasında başlıca məqsəd oxuculara xidmət işində zaman və məkan probleminin aradan qaldırılmasından, Milli Kitabxana fondununda mühafizə olunan qiymətli nəşr məhsullarının konservasiyasının təmin olunması və onları əsaslı surətdə mühafizə etməkdən, fondun elektron versiyasını hazırlamaqdan və qiymətli kitab fondlarından onlayn rejimdə məsafədən istifadənin təşkilindən, Azərbaycan elminin nailiyyətlərini İnternet vasitəsilə geniş təbliğ etməkdən və oxucuların informasiyaya olan tələbatını operativ şəkildə təmin etməkdən ibarətdir. Artıq çoxdandır ki, Milli Kitabxanada avtomatlaşdırılmış kitabxana idarəetmə sisteminin imkanlarından tam şəkildə istifadə etməklə Elektron kitabxana yaradılmış və oxuculara məsafədən xidmət göstərilməsi texnologiyasının tətbiq edilməsinə başlanılmışdır. İndi bilavasitə kitabxanaya gələn oxuculara Elektron kitabxananın resursları lokal şəbəkə - İNTRANET vasitəsilə, uzaq məsafəli istifadəçilərə isə qlobal şəbəkə - İNTERNET vasitəsilə təqdim olunur. Hazırda Milli Kitabxananın saytında oxuculara kitabları həm əlifba sırası üzrə, həm də bu mənbənin aid olduğu elm sahəsi üzrə axtarmaq imkanı da yaradılmışdır. Elektron kitabxana müəllif hüquqlarını qoruyub saxlamaqla, milli ədəbiyyat nümunələrinin elektron daşıyıcılarına tam dolğunluğuyla köçürülməsini təmin edir. Eyni zamanda elektron kitabxanaya müəllifin öz razılığı və müvafiq ərizəsi əsasında təqdim edilən kitabın elektron versiyası da daxil edilir. Qısa müddət ərzində informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş Azərbaycan Milli Kitabxanasında sistemli iş aparılmış, avtomatlaşdırılmış kitabxana idarəetmə sistemi tam tətbiq edilmiş, zəngin elektron resurslar yaradılmışdır.



Elektron resursların yaradılması şöbəsi elektron kitabxananın bazasının yaradılması və zənginləşdirilməsi işinə xidmət edir. Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara göstərildiyi halda, elektron kitabxanalar günün iyirmi dörd saatı müddətində fasiləsiz fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni anda xidmət edə bilir. Elektron kitabxanalar çoxnüsxəli kitabların alınmasına olan ehtiyacı da aradan qaldırır, böyük kitabxana sahəsindən imtina etməyi təmin edir. Elektron kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış, rəqəmli formatda hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarət informasiya ehtiyatlarına malik olur.

Azərbaycan Milli Kitabxanasının Elektron resurslarının yaradılması şöbəsi "Müəllif hüquqları və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununu rəhbər tutaraq 2006-cı ildən etibarən Elektron kitabxana (Azərbaycan, rus, ingilis dillərində) bazasının zənginləşdirilməsi, yeni elektron məlumat bazalarının yaradılması işlərini həyata keçirir. Şöbədə kitab və dövri mətbuat nümunələrinin elektron versiyasının hazırlanması üçün rəqəmsal cihazlardan - rəqəmsal fotoaparat, skaner, yüksəksürətli robot-skaner və s. avadanlıqlardan istifadə olunur. Bu aparatlar

vasitəsilə ədəbiyyatın fotosurətləri çəkilir, kompyuterlərə ötürülür, qrafik proqramlar vasitəsilə işlənir, lazımi formata çevrilir və elektron kitabxananın bazasına ötürülür. Kitab və dövri mətbuat nümunələrinin elektron vesiyası yaradılarkən onların etibarlı mühafizəsini təmin etmək məqsədilə əksər hallarda rəqəmsal fotoaparatlardan istifadəyə üstünlük verilir. Bu məqsədlə yaradılmış qurğudan, ona bərkidilmiş fotoaparatdan və köməkçi vasitələrdən istifadə olunur.



**Rəqəmsal fotoaparat vasitəsilə kitabın çəkilişi prosesi**

Kitabı çəkərkən plastik şüşə lövhədən istifadə olunur. Plastik şüşə lövhə şəffaf və hamar olduğu üçün səhifənin aydın çəkilməsinə xidmət edir. Ədəbiyyatın rənginə müvafiq olaraq sənədlər ağ-qara və rəngli rejimdə çəkilir. Ədəbiyyat çəkiliş üçün hazırlanmış qurğunun lövhəsi üzərində yerləşdirildikdən sonra qurğuya bərkidilmiş fotoaparat vasitəsilə ədəbiyyatın daha aydın görünüşü ayarlanır (təyin edilir), şüşə lövhə səhifələrin üzərinə qoyulur və səhifələr vərəqlənərək çəkilir. Prosesin sonunda çəkilmiş sənədlər redaktə olunmaq üçün USB kabel vasitəsilə fərdi kompyuterlərə köçürülür, qrafik proqramlarda işlənilib PDF formatına salınır. Bu proses elektron resursun hazırlanması baxımından daha əlverişlidir. Şöbədə müasir informasiya texnologiyalarının tətbiq edilməsi, istifadə olunan qurğuların təkmilləşdirilməsi, yeni robot-skanerin alınması, həmçinin proqram təminatının daha optimalları ilə əvəz edilməsi sayəsində elektron resursların hazırlanması sürəti xeyli artmışdır.





**Robot-skaner**

Elektron resursların keyfiyyətinin artırılması üçün kitabları özü skan edən xüsusi robot-skaner də quraşdırılmışdır. Bu aparat kitabın skan olunması prosesini tam olaraq özü həyata keçirir. Robot bir saat ərzində 2500-3000 səhifə skan etmək imkanına malikdir.

Elektron resursların yaradılması istiqamətində atılan daha bir addım dövri mətbuat nümunələrinin tam komplektlərinin elektron versiyasını yaratmaqdan ibarətdir. 2011-ci ildən Elektron kitabxanamızda daha bir baza – Dövri və ardı davam edən nəşrlər bazası yaradılıb oxuculara təqdim olunmağa başlanılmışdır. Artıq bu istiqamətdə xeyli işlər görülmüş, "Azərbaycan", "Xalq", "Kommunist", "Ədəbiyyat qəzeti", "Bakinski raboçi", "Kaspi", "İrşad", "Açıq söz", "Həqiqət", "Sədayi-həqq", "Doğru söz", "Bəsirət", "Ziyayi Qafqaziyyə", "Əkinçi" qəzetlərinin, "Dəbistan", "İnqilab və mədəniyyət", "Məzəli", "Şəlalə" və bir çox qəzet və jurnalların elektron versiyaları yaradılmış və kitabxananın lokal şəbəkəsinə yerləşdirilərək oxucuların istifadəsinə təqdim edilmişdir. Milli Kitabxanada dövri mətbuat nümunələrinin elektron versiyası hazırlanarkən yalnız rəqəmsal fotoaparatlardan istifadə olunur. Çap məhsullarının fiziki cəhətdən korlanması ilə nəticələnən termik üsulla rəqəmsallaşdırılma metodundan tam şəkildə imtina olunmuşdur. Uzun illərdən bəri Milli Kitabxananın dövri mətbuat fondunda qorunub saxlanan iri formatlarda olan qəzet nümunələri cildlənmiş formada kitabxananın qəzet fondunda mühafizə olunur. Lakin daha keyfiyyətli elektron resursun alınması məqsədilə qəzetlərin elektron versiyası hazırlanarkən onların cildləri açılır, çəkiliş prosesi başa çatdıqdan sonra isə kitabxananın mətbəəsində yenidən cildlənir və qəzet fonduna təhvil verilir.

2013-cü ilin yayından başlayaraq kitabxanaya yeni daxil olan dövri və ardı davam edən nəşrlər silsiləsindən elmi əsərlərin, elmi məcmuələrin və elmi xəbərlərin və müxtəlif mövzu məcmuələrinin elektron versiyalarının bazaları da hazırlanıb lokal şəbəkə oxucularının istifadəsinə təqdim olunmuşdur.





**Qəzetin rəqəmsal fotoaparat vasitəsilə çəkilməsi**

Qiymətli kitab fondlarının konservasiyasının həyata keçirilməsi məqsədilə onların mikrofilmlərinin hazırlanması və mikrofilmləri oxumaq üçün avadanlıqlar, keçən əsrin əvvəllərində buraxılan qiymətli qrammafon vallarının CD disklərə və audio kassetlərə yazılmasını təmin edən müasir tipli qurğular, CD disk, audio kaset, qrammafon valları oxumaq məqsədilə 15 nəfərlik fərdi oxucu yeri olan foneteka kabineti üçün avadanlıqlar, kitab təqdimatları və müxtəlif kütləvi tədbirlərin keçirilməsi üçün prezentasiya, səsgücləndirici və akustika avadanlıqları Yaponiya dövləti tərəfindən Milli Kitabxanaya hədiyyə edilmişdir.

Mikrofilmlərin mətninin xüsusi kompyuter yaddaşına köçürülməsinə imkan verən qurğu isə xüsusilə əhəmiyyətlidir, qiymətli kitabların və qəzet-jurnal dəstlərinin tam elektron mətnlərinin yaradılmasının sürətləndirilməsi işində böyük rol oynayır. 2006-cı

ildən Azərbaycan kitabının arxivi şöbəsinin fondunda saxlanılan mikrofilmləri mühafizə edərək oxucuların istifadəsinə təqdim edən ayrıca bölmə - Mikrofilm bölməsi fəaliyyətə başlamışdır. Bölmə Yaponiyadan gətirilmiş avadanlıqlarla - oxu, surətçıxarma və mikrofilmləşdirmə avadanlıqları ilə təchiz olunmuşdur.



**Mikrofilmdən istifadə**

Bölmənin fondunu zənginləşdirmək, eyni zamanda qədim ədəbiyyatdan oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə yeni avadanlıqların köməyi ilə Azərbaycan ədəbiyyatının arxivi və Nadir kitablar və kitabxana muzeyi şöbəsinin fondundakı 413 nüsxə qədim dövr ədəbiyyatının (Azərbaycan və rus dillərində) mikrofilmi hazırlanmışdır. Mikrofilmlərdən istifadə eyni zamanda qədim dövr ədəbiyyatının konservasiyasını və etibarlı mühafizəsini də təmin edir.



Mikrofilmdən istifadə çox sadədir. Mikrofilmin rulonu çarxa yerləşdirilir, 35 mm ölçüdə olan lentləri işıq lampaları altında mikrofilmin oxu aparatlarında aydın oxunmasını təmin edir. Mikrofilmlərin hər biri kitabxana qaydası ilə inventarlaşdırılmış və nömrələnmiş, katoloqda təsvir olunmuşdur. Hər bir mikrofilmə verilən nömrə həmin mikrofilmin axtarış nömrəsi kimi qeyd olunur.

Kitab, qəzet və junalların elektron versiyaları ilə yanaşı, fondumuzda olan musiqi ədəbiyyatlarının, not nəşrlərinin elektron versiyalarının bazaları da yaradılmış və oxucuların istifadəsinə verilmişdir. Son vaxtlar həyata keçirilən "Musiqi kitabxanası" layihəsi xüsusilə qeyd olunmalıdır. Kitabxananın saytında oxuculara ayrıca sayt kimi təqdim olunan "Musiqi kitabxanası" 4 bölmədən ibarətdir:

1. Musiqi ədəbiyyatı
2. Not nəşrləri
3. Not əlyazmaları
4. Səsyazmaları

"Musiqi ədəbiyyatı" bölməsində Milli Kitabxananın fondunda olan və elektron versiyası hazırlanmış 2817 ədəbiyyatın təsviri əlifba sırası ilə verilmişdir. Burada Milli Kitabxananın əsas fondlarında mühafizə olunan və müəllif hüquqları haqqında qanunun imkan verdiyi bütün musiqi ədəbiyyatının tammətnli elektron versiyası virtual şəkildə oxuculara təqdim olunur.

"Not nəşrləri" bölməsində dünya, rus və Azərbaycanın klassik və müasir bəstəkarlarının musiqi əsərlərinin, xalq musiqisinin not məcmuələrində nəşr olunan nümunələrinin tammətnləri yerləşdirilmişdir.

"Not əlyazmaları" bölməsində son 40 ildən artıq bir dövr ərzində Azərbaycan Respublikasının Mədəniyyət və Mədəniyyət və Turizm Nazirlikləri tərəfindən ayrı-ayrı bəstəkarlardan satın

alınmış 2 minə yaxın musiqi əsərlərinin not əlyazmaları rəqəmsallaşdırılaraq təqdim olunmuşdur. Bu materialların musiqişünas mütəxəssislər üçün çox vacib əhəmiyyət daşıdığı nəzərə alınaraq onların bütün iri konsert müəssisələri üzrə toplu məlumat bazaları yaradılaraq təqdim olunmuşdur.

4-cü bölmə "Səsyazmaları" adlanır və burada XIX-XX əsrlərdə istehsal olunmuş və Milli Kitabxananın fondunda mühafizə olunan 30 mindən artıq qrammofon vallarının xüsusi avadanlıqlar vasitəsilə kompyuter yaddaşına köçürülmüş versiyası ayrı-ayrı korifey sənətkarlarımızın ifalarında mp-3 formatında öz əksini tapmışdır. Bu bölmədə 10 minə yaxın qiymətli qrammofon vallarının rəqəmsallaşdırılmış səsyazmaları verilmişdir. Burada həmçinin muğamlarımız, xalq mahnılarımız və aşıq musiqisi nümunələri də öz əksini tapmışdır. Bütövlükdə "Musiqi kitabxanası"ndan respublikamızın hər bir ucqar kəndindən, şəhər və rayonundan, habelə dünyanın hər bir yerindən İnternetə çıxışı olan hər bir oxucu Azərbaycan musiqisinin bütün incilərindən virtual şəkildə istifadə etmək və bəhrələnmək imkanı əldə etmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm nazirinin müvafiq əmrinə əsasən digər teatr və konsert müəssisələrində mühafizə olunan Azərbaycan musiqisinin not əlyazmaları Milli Kitabxananın Not nəşrləri və səsyazmaları şöbəsində toplanaraq not əlyazmalarının milli arxiv fondu yaradılmışdır. Burada qiymətli not əlyazmalarının etibarlı mühafizəsi üçün hər cür şərait yaradılmış, onlar rütubət və temperatur rejimini tənzimləyən, günəş işığının, tozun, rütubətin və digər kənar təsirlərdən, yanğından qorunmasına tam təminat verən germetik mobil kitab rəflərində yerləşdirilmişdir.



18036

Kitabxananın Fonoteka zalı müasir standartlara uyğun olan yeni avadanlıqlarla təmin olunmuşdur.



Fonoteka zalı



Fonoteka zalı

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsinə dair tədbirlər planı əsasında Azərbaycan klassiklərinin musiqi əsərləri yazılmış qrammofon vallarının informasiya daşıyıcılarına köçürülməsi işi 2009-cu ildən sürətlə həyata keçirilməyə başlanmışdır. Hazırda Milli Kitabxanada mühafizə olunan 30.000 qrammofon valından 10 minə yaxını artıq CD disklərə köçürülmüş və onların elektron bazası yaradılmışdır. Bütün təhsil müəssisələrinə - musiqi məktəbi, kollec, Musiqi Akademiyası və Milli Konservatoriyanın tələbə və müəllimlərinə, eyni zamanda musiqi ilə maraqlananlara, bəstəkarlara, musiqişünaslara, ifaçılara xidmət edən Fonoteka bölməsi Səsyazmaları arxivi kimi respublikanın yeganə qızıl fondu hesab edilir.



**Azərbaycan klassiklərinin musiqi əsərləri yazılmış qrammofon valları müasir informasiya daşıyıcılarına köçürülür.**



2016-cı ildə Azərbaycan musiqisinin dünyada və respublikada genişmiqyaslı təbliğinə nail olmaq məqsədilə Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxana tərəfindən "Azərbaycan musiqi irsinin dünyada təbliği" birgə layihənin həyata keçirilməsinə başlanılıb.




**Petruçi Musiqi kitabxanası**

Beynəlxalq musiqi saytı olan "Petruçi Musiqi kitabxanası"nda (www.impls.orq) Azərbaycan xalq mahnıları və bəstəkarlarının 300-dən çox musiqi əsərinin notları, habelə Azərbaycanın korifey ifaçılarının səs yazıları mp-3 formatında yerləşdirilib. Burada Azərbaycanın Dövlət Himni, "Sarı gəlin", "Qarabağ şikəstəsi" kimi şedevrlərin həm notu, həm də səsyazısı, görkəmli ifaçılarımızdan ölməz Bülbülün, Xan Şuşinskinin, unudulmaz Rəşid Behbudovun, Lütfiyar İmanovun, Habil Əliyevin və digər sənətkarlarımızın ifasında xalq mahnılarımızın və bəstəkar mahnılarımızın lent yazıları yerləşdirilmişdir.

VIRTUA avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi Milli

Kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında oxuculara operativ məlumatın verilməsini təmin etmişdir. Kitabxanaya müxtəlif mənbələrdən daxil olan ədəbiyyat Milli Kitabxananın saytındakı “Yeni ədəbiyyat” bölməsində öz əksini tapır ki, oxucular həmin bölmə vasitəsilə hər gün kitabxanaya daxil olan yeni ədəbiyyat barədə məlumat ala bilirlər. Bu bölmənin materialları əsasında Milli Kitabxana tərəfindən “Birlilik Azərbaycan kitabiyyatı” və “Yeni kitablar” cari informasiya bülletenləri buraxılır.

Kitabxananın nəşrləri, onların tam elektron mətnləri saytın “Kitabxanamızın nəşrləri” bölməsində yerləşdirilir və istənilən kitabxana və ya oxucu həmin bölməyə daxil olaraq onlardan bəhrələnə bilir. Kitabxananın bütün nəşrləri tam şəkildə nəşrə hazır olduqda çap olunmazdan və yerlərə göndərilməzdən xeyli əvvəl virtual rejimdə respublika və dünya kitabxanalarının və kitabxanaçılarının, oxucuların sərəncamına verilir.

2008-ci ilin dekabr ayından Milli Kitabxanada ölkə mətbuatının ayrı-ayrı mövzular və predmetlər üzrə tammətnli analitik məlumat bazasının yaradılması işlərinə başlanılmışdır. Yəni 100-dən çox qəzet və jurnalda dərc olunan materialların tam elektron mətnləri mövzu və predmetlər üzrə qruplaşdırılaraq Milli Kitabxananın elektron kataloqunun analitik məlumat bazasına daxil edilir. Bununla da kitabxananın oxucuları nəinki dövri mətbuat materiallarının biblioqrafik təsvirlərini, hətta onların tam elektron mətnlərini də kitabxananın saytı və elektron kataloqu vasitəsilə açıb oxuya bilirlər.

2006-cı ildən Analitik məlumat bazasının təşkili şöbəsi yeni cari-biblioqrafik vəsaitin - “Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat”ın nəşrinə başlamış, mədəniyyət sahəsində analitik soraq-informasiya xidmətinin təşkilini təmin etmişdir. Ayda bir dəfə nəşr edilən “Mədəniyyət, incəsənət və turizm



haqqında yeni ədəbiyyat” adlı biblioqrafik informasiya göstəricisi vasitəsilə Mədəniyyət və Turizm Nazirliyinin rəhbər işçiləri, mədəniyyət sahəsində aparıcı mütəxəssislər və oxucular Azərbaycan mədəniyyəti, incəsənəti və turizmi haqqında Milli Kitabxanaya daxil olan yeni ədəbiyyat və dövri mətbuat materialları haqqında operativ məlumatlandırılırlar.

Şöbədə mədəniyyət və incəsənətə aid (Azərbaycanda mədəni quruculuq, mədəni əlaqə, kitabxana işi, muzey işi, turizm, tarix və mədəniyyət abidələrinin qorunması, kino, musiqi, Azərbaycan teatrları, təsviri incəsənət, rəssamlıq, heykəltəraşlıq və s.) materiallar araşdırılır, analitik təsvir edilir, seçilmiş materiallar müvafiq bölmə daxilində yerləşdirilir, elektron mətni olmayan məqalələr isə skan edilərək məlumat bazasına daxil edilir. Ayda bir dəfə nəşr olunan cari-biblioqrafik informasiya göstəricisi iki dildə - Azərbaycan və rus dillərində çap edilir. 2009-cu ildən şöbənin fəaliyyətində xeyli irəliləyişlər baş vermiş, innovasiyalar tətbiq olunmuş, “Analitik elektron məlumat bazasının təşkili” şöbəsi adı altında fəaliyyət göstərməyə başlamışdır. Şöbə hazırda Azərbaycan milli mətbuatının analitik elektron məlumat bazasını yaratmaqla məşğul olur. Şöbənin başlıca məqsədi və vəzifəsi dövri mətbuat səhifələrindən respublikamıza aid Azərbaycan və rus dillərində ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələri, əlamətdar günləri, elmin müxtəlif sahələrinə - iqtisadiyyata, kənd təsərrüfatına, mədəniyyətə, elmə, təhsilə, idmana və s. sahələrə aid materialları işləyərək kitabxananın elektron kataloqunda əks etdirməkdir.

Bu xidmət respublikamızın ayrı-ayrı şəhərlərində, rayonlarında və kəndlərində, eləcə də xarici ölkələrdə Milli Kitabxananın saytı vasitəsilə insanların ayrı-ayrı mövzular üzrə gündəlik məlumatlanmasını asanlaşdırır. Qəzetlərdəki materiallar seçilib yazılarkən məqalənin adına, müəllifinə, məzmununa, mövzusu-




**"Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq" adlı cari biblioqrafik informasiya göstəricisi**

na uyğun olaraq düzgün predmet verilir. Nəticədə respublikada və respublikadan kənarda hər hansı bir oxucu elm, iqtisadiyyat, mədəniyyət, siyasət, idman və ayrı-ayrı mövzular üzrə gündəlik mətbuatda dərc olunan məqalələrin tam elektron mətnini Milli Kitabxananın (www.anl.az) saytı və elektron kataloqu vasitəsilə açıb oxumaq imkanına malik olur.

Oxucu istədiyi mövzunu axtararkən bütün qəzetləri vərəqləməyə ehtiyac qalmır, sadəcə kitabxanamızın saytına daxil olaraq axtarış bazasında elmin və təsərrüfatın ayrı-ayrı sahələri, o cümlədən mədəniyyət, turizm, kitabxana işi, muzey işi və s. mövzuları illər üzrə axtarışa verməklə özünə lazım olan materialları əldə etməyə nail olur. Məqsəd oxucunun vaxt itkisinə yol vermədən kənarda, məsafədən – evində, iş yerində və s. oturaraq istənilən mövzu üzrə dövri mətbuat materiallarını axtarıb tapa bilməsidir.



2006-cı ildən "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adı ilə nəşr olunan göstəriciyə 2015-ci ilin fevral ayından etibarən "Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq" bölməsi də əlavə olunub. Buna görə də vəsaitin adı dəyişdirilərək "Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adlandırılıb. Şöbənin tərtib etdiyi bu cari-biblioqrafik informasiya göstəricisi və onun tam mətni kitabxananın saytında müvafiq bölmədə yerləşdirilmişdir.

Diyarşünaslıq elmi biblioqrafiya şöbəsində iş yenidən qurulmuş və isifadəçiləri elektron katloqda əks olunmuş diyarşünaslıq xarakterli materiallarla təmin etməyə başlanılmışdır. Kitabxana işinin modernləşdirilməsi və avtomatlaşdırılması ilə əlaqədar olaraq şöbə diyarşünaslıq məlumat-biblioqrafiya aparatının tərkib hissəsi olan "Azərbaycanşünaslıq" kataloq və kartotekalar sisteminin elektron variantını yaratmışdır. Burada həm yeni çap olunan elmi əsərlərdə, mövzu məcmuələrində, elmi xəbərlərdə və digər müvafiq buraxılışlarda dərc olunan materiallar, həm də əvvəlki illərdə dərc olunmuş retrospektiv xarakterli materiallar öz əksini tapır. Qeyd etmək lazımdır ki, bu məlumat bazası ölkəmizə dair diyarşünaslıq xarakterli materialların salnaməsinin yaradılmasında və eləcə də ayrı-ayrı mövzular üzrə axtarışların aparılmasında xüsusilə əhəmiyyətlidir.

Tərtib edilən diyarşünaslıq xarakterli biblioqrafik vəsaitlərin arxivini təkmilləşdirmək, elmi və sahəvi kitabxanalarla birgə diyarşünaslıq elmi-biblioqrafiya sistemini yaratmaq, Bakı və region kitabxanalarına müvafiq mövzu üzrə metodiki köməklik göstərmək də şöbənin əsas fəaliyyət istiqamətlərindəndir. Diyarşünaslığa dair materiallar əvvəllər elmi kitabxanalar üçün Kitabxana Biblioqrafiya Təsnifatı (KBT) cədvəlinə uyğun olaraq sistemləşdirilirdisə, indi isə biblioqrafik yazılar elektron kataloqda VİRTUA proqram

təminatında MARK-21 formatında yazılaraq dünya informasiya sisteminə qoşulmuşdur. Azərbaycana dair olan bu səpkili materiallar elektron daşıyıcılara köçürülərək elektron mübadilə sistemi vasitəsilə yayımlanır. Diyarşünaslıqla bağlı məqalələrin təsviri 2006-cı ildən kitabxananın elektron kataloqunda öz əksini tapmağa başlamışdır. Şöbə 2006-2009-cu illərdə diyarşünaslıq materiallarını dövri mətbuat səhifələrindən, hal-hazırda isə diyarşünaslıq xarakterli retrospektiv ədəbiyyatı VİRTUA sistemi ilə kitabxananın elektron kataloqunda yerləşdirir və elektron informasiya xidməti ilə məşğul olur.

Bu gün kitabxanamızın oxucuları və eləcə də dünya miqyasında Azərbaycanla maraqlanan bütün insanlar Milli Kitabxananın saytı və elektron kataloqu vasitəsilə zaman və məkan problemi olmadan Milli Kitabxananın nəinki kataloq və fondlarına daxil olaraq ondan sərbəst istifadə edə bilirlər, hətta onun tammətnli elektron məlumat bazaların-dan da bəhrələnirlər. “Heydər Əliyev irsi”, “Zərifə xanım Əliyeva”, “Mir Cəlal Paşayev irsi”, “Mehriban xanım Əliyeva”, “Fikrət Əmirov”, “Bunları unutmaq olmaz”, “Qan yaddaşımız”, “Qarabağ müharibəsi”, “Xocalı soyqırımı”, “31 Mart Soyqırımı günü”, “Abuzər Xələfov”, “Nəsir İmanquliyev”, “Nizami Gəncəvi”, “M.Ə.Sabir”, “M.F.Axundzadə”, “Nəriman Həsənzadə”, “Qara Qarayev”, “Üzeyir Hacıbəyli”, “Azərbaycan Milli Kitabxanası – 90”, “Azərbaycan teatrı – 140”, “Elçin”, “Teymur Elçin”, “Bəxtiyar Vahabzadə”, “İlyas Əfəndiyev” və başqa elektron məlumat bazaları da bu gün oxucularımız üçün dəyərli mənbələrdir.

Milli Kitabxananın Elektron kataloqunun məlumat bazası Avropa Elektron Kitabxanasına daxil edilmişdir ki, Milli Kitabxananın oxucuları ABŞ-ın Konqres Kitabxanasının, Avropa Birliyinin 48-dən çox ölkəsinin milli kitabxanasının və Rusiya Dövlət Kitabxanasının elektron məlumat bazalarına, habelə Rusiya Dövlət Ki-





**Elektron məlumat bazaları**

tabxanasının elektron dissertasiya fonduna birbaşa çıxış imkanı əldə etmişlər. Kitabxananın oxucuları Avropanın 50-dən çox kitabxanasının fondlarında və kataloqlarında birbaşa axtarış aparmaq imkanı əldə etmişlər. Eyni zamanda 50-dən çox Avropa ölkəsinin milli kitabxanasının oxucuları da Azərbaycan Milli Kitabxanasının fond və kataloqlarından istifadə etmək imkanı qazanmışdır.

Milli Kitabxananın son dövrlərdə müasir tələblərə uyğun olaraq inkişaf edən şöbələrindən biri də Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsidir. Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsinin əsas funksiyası Azərbaycanda müdafiə edilən dissertasiya və avtoreferatların elektron resurslarını hazırlayıb lokal şəbəkədə yerləşdirmək və həmin şəbəkə vasitəsilə tammətnli dissertasiya və avtoreferatların elektron



**Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi**

bazasından oxucuların istifadəsini təmin etmək, istifadəçilər üçün məlumatın əldə edilməsini təkmilləşdirməkdir. Bu gün dissertasiyaların məlumat bazasında 10 mindən artıq dissertasiya və onların avtoreferatları rəqəmsallaşdırılaraq məlumat bazasına daxil edilmişdir.

2008-ci ilin sentyabr ayından etibarən Milli Kitabxananın Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində Rusiya Dövlət Kitabxanasının Elektron Dissertasiya fondunun "Virtual oxu zalı" açılmışdır. Oxu zalında Azərbaycan Milli Kitabxanasının oxucuları Rusiya Dövlət Kitabxanasının elektron dissertasiya fondunda mühafizə olunan 700 mindən çox dissertasiya və avtoreferatların tam elektron mətnindən istifadə etmək imkanı əldə etmişlər. Rusiya Dövlət Kitabxanasının Elektron Dissertasiya Fondunda dissertasiya və avtoreferatların axtarışı təkcə elm





**Milli Kitabxananın oxucusu Rusiya Dövlət Kitabxanasının Elektron Dissertasiya Fondundan istifadə edərkən**

sahələri üzrə deyil, həmçinin dissertasiya və avtoreferatın müəllifinə, mövzusuna, nəşr ilinə və s. görə aparılır.

Oxucu bu elektron bazadan hər hansı dissertasiya və avtoreferatın istifadəsi üçün qeydiyyatdan keçirilir və yalnız həmin oxucuya məxsus olan və birdəfəlik ona verilən parol və şifrə ilə bazaya daxil olaraq istədiyi tammətnli dissertasiya və avtoreferatı açıb oxumaq hüququnu qazanır. Bu xidmət alimlərimiz, ziyalılarımız, tədqiqatçılarımız tərəfindən çox yüksək qiymətləndirilmiş, onların işini olduqca asanlaşdırmışdır və hətta onlar uzaq məsafə qət etmədən, aylarla vaxt itirmədən, əlavə vəsait sərf etmədən istədikləri dissertasiya və avtoreferatları virtual oxu zalı vasitəsilə istifadə etmək imkanı əldə etmişlər. Bütün bu xidmət növləri Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində müəllif

hüququnun qorunması şərtilə mümkündür. 2010-cu ilin aprel ayında şöbədə Azərbaycanda müdafiə olunan dissertasiyaların və onların avtoreferatlarının elektron məlumat bazasının təqdimat mərasimi keçirilmişdir. Bu gün artıq respublikamızda müdafiə olunan dissertasiyaların Elektron Dissertasiya Fondunun elektron bazası formalaşmış və iş xronoloji ardıcıllıqla davam etdirilir. Hal-hazırda bazada 10 minə yaxın elektron resurs yerləşdirilmişdir və hər il 1250-1300 resurs hazırlanaraq bazaya əlavə olunur. Oxucularımızın lokal şəbəkədə elektron bazamızdan istifadəsini asanlaşdırmaq məqsədilə resurslar 2 istiqamətdə: həm elm sahələri, həm də müəllifə görə yerləşdirilmişdir. Hər il 1000 nəfərə yaxın oxucu bu xidmətdən istifadə edir. Oxucuların lokal şəbəkədən istifadəsini asanlaşdırmaq üçün elektron kataloqda biblioqrafik yazıda tammətnli dissertasiya və avtoreferatda multimedia ünvanı qeyd olunur. Bu da istifadəçilərin şöbəyə gəlmədən istədikləri dissertasiya və avtoreferatın tammətninin olub-olmaması haqda məlumat almasına kömək edir. Azərbaycanda müdafiə olunan və Milli Kitabxanaya daxil olan dissertasiya və avtoreferatların elektron resurslarının yaradılması prosesi davam etdirilir.

Elektron kitabxananın təkmilləşdirilməsi məqsədilə Milli Kitabxana tərəfindən xüsusi proqram işlənib hazırlanmışdır. Bu proqram vasitəsilə kitabların elektron resurslarına Milli Kitabxananın holoqramı vurulur (zəif fonda "Milli Kitabxana" sözü yazılır), elektron resurs kodlaşdırılır ki, bu da elektron kitabxanada yerləşdirilən və müəllif hüquqları qorunan kitabların surətinin çıxarılmasına, elektron daşıyıcılarına (fləş-kart, CD disk və s.) köçürülməsinə imkan vermir. Hazırda Milli Kitabxananın Elektron Kitabxanasında 130 mindən artıq elektron resurs vardır və yaxın zamanda onların əksəriyyəti oxucular üçün açıq olacaqdır.

Milli Kitabxananın oxuculara və kitabxanalara təqdim etdiyi





Virtual sifariş

son yeniliklərdən biri də məsafədən virtual sifariş sisteminin yaradılmasıdır. Bu gün Milli Kitabxana respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və İnternet istifadəçilərinə virtual rejimdə xidmət göstərir. İnternetə çıxışı olan hər bir oxucu yaşayış və yaxud iş yerindən kitabxananın saytındakı "Virtual sifariş" bölməsinə girərək istənilən kitabı sifariş edə bilər və dərhal ona həmin kitabın kitabxanada olub-olmaması barədə məlumat verilir, lazım gəldikdə onu sifariş edir və artıq oxucu kitabxanaya gələrkən kitab rəfdə onu gözləyir. Beləliklə, oxucu kitabı kataloqda axtarmaq və sifariş edib gözləməyə əlavə vaxt sərf etmir. Əgər oxucunun istədiyi kitab və ya nəşr kitabxanada yoxdursa, heç oxucunun vaxt itirib kitabxanaya gəlməsinə ehtiyac qalmır.

2010-cu ildən Milli Kitabxananın ümumi fondunda olmayan ədəbiyyatı Rusiya Dövlət kitabxanasından və digər dünya kitab-




**Virtual metodik xidmət**




**Virtual biblioqrafik sorğu**

xanalarından əldə etmək üçün bir sıra iri kitabxanalarla ikitərəfli müqavilələr imzalanmışdır və digər dünya kitabxanalarından müxtəlif ədəbiyyatlar oxucuların sifarişi əsasında "Kitabxanalararası abonement və Sənədlərin elektron çatdırılması" bölməsi vasitəsilə həyata keçirilir.

Eyni zamanda bu bölmə xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında bu və ya digər materiallara ehtiyac duyan oxuculara virtual rejimdə xidmət də göstərir. Bu bölmə respublikamızın digər şəhər və rayonlarında yerləşən mərkəzi kitabxanalar vasitəsilə bütün Azərbaycan oxucularına da virtual rejimdə kitabxana xidmətini həyata keçirməyi öz üzərinə götürmüşdür. Bu da yerlərdəki mərkəzi kitabxanalarda oxuculara verilən rədd cavablarının sayının minimuma endirilməsinə və regionlardakı oxuculara və mütəxəssislərə kitabxana xidmətinin səviyyəsinin yüksəldilməsinə səbəb ola bilər.



Təəssüflər olsun ki, şəhər və rayon MKS-ləri və onların mərkəzi kitabxanaları Milli Kitabxananın bu imkanlarından çox az istifadə edirlər.

Bu gün Milli Kitabxana respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə virtual rejimdə metodik xidmət göstərir. Belə ki, kitabxananın saytında virtual "Metodik xidmət" bölməsi yaradılmış və ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi müxtəlif sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayıb qısa vaxt ərzində lazım olan metodik tövsiyələri, yaxud kitabxana işinin bu və ya digər məsələlərinə dair məsləhətlər ala bilirlər.

2015-ci ildən Milli Kitabxanada daha bir virtual xidmət növü - "Biblioqrafik sorğu" (oxucular üçün) virtual xidməti oxucuların istifadəsinə təqdim olunmuşdur. Bu virtual xidmət vasitəsilə dünyanın



**Retrokonversiya prosesinin təqdimatı**

istənilən nöqtəsindən, hətta respublikamızın ucqar kəndlərindən hər bir kitabxana işçisi, müxtəlif oxucular, istifadəçilər biblioqrafik sorğularını, yəni hər hansı ədəbiyyatların kitabxanada olub-olmaması barədə sorğu, habelə müvafiq mövzular üzrə kiçik ədəbiyyat siyahılarının tərtibi və s. barədə sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə öz sorğularına cavab ala bilirlər.

Milli Kitabxanada kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində atılan ciddi addımlar nəticəsində oxuculara xidmət işinin müasir növləri tətbiq edilir və bu iş gündən-günə genişləndirilir. Oxucu sorğularının ödənilməsində elektron kataloq aparıcı rol oynayır. Elektron kataloq ənənəvi ka-





**Retrokonversiya**

taloqdan axtarışın müxtəlifliyinə görə fərqlənir və elektron kataloq ədəbiyyat fondu haqqında ənənəvi kataloqdan daha dolğun biblioqrafik məlumata malik olduğundan, oxucuya çoxelementli və çoxsəviyyəli axtarış imkanları təklif edir. Digər tərəfdən, oxucu elektron kataloq vasitəsilə uzaq məsafədən ədəbiyyat axtarışı apara bilir, istədiyi kitabı sifariş verə bilir. Telekommunikasiya vasitələri qeyri-məhdud sayda oxucuya eyni zamanda elektron kataloqda biblioqrafik təsvirin bütün əsas elementləri və avtoritet yazılar üzrə axtarış aparmaq, kitabxana fondunda olan ədəbiyyatı sifariş etmək imkanı yaradır. Məsələn, ənənəvi kataloqda axtarış yalnız müəllif və sərlövhəyə görə aparılırsa, elektron kataloq oxuculara və istifadəçilərə çoxlu sayda parametrlər üzrə: müəllif, sər-

lövhə, sərlövhə altı məlumat, açar söz, predmet, nəşriyyat, ISBN, nəşr ili, nəşr yeri, düzülüş şifrəsi və s. parametrlər üzrə axtarış aparmaq imkanı yaradır.

Milli Kitabxanada aparılan avtomatlaşdırılma prosesində rus dilində olan sistemli kataloqların retrokonversiya edilməsi işini xüsusi qeyd etmək lazımdır. Retrokonversiya biblioqrafik yazının, yəni kitabxana kataloqlarının fəaliyyətinin bir formadan digər formaya çevrilməsi deməkdir. Bu halda kataloq kartoçkalarında olan mətni məlumatlar dəyişilməz qalır və xüsusi qurğunun köməyi ilə skan olunaraq maşınla oxunan vəziyyətə gətirilir. Konversiya edilmiş kataloqların üstün cəhətləri ondan ibarətdir ki, kataloqda oxucu sərbəst axtarış apara bilir, ədəbiyyatı öz maraq dairəsinə görə seçir və bu sahədə yeni çap olunan ədəbiyyatla da tanış olmaq imkanı əldə edir. Bir kompyuter arxasında əyləşmiş oxucu onlarla kataloq yeşiklərini gözdən keçirə bilir ki, bu da vaxt itkisinin azalmasına gətirib çıxarır. Konversiya edilmiş sistemli kataloqlar oxuculara, istifadəçilərə eyni vaxtda eyni mövzu üzrə müxtəlif kompyuterlərdə axtarış aparmaq imkanını yaradır.

Milli Kitabxanada rus dilində ədəbiyyatın sistemli kataloqunun retrokonversiyası həyata keçirilmiş, skan olunmuş kartoçkalar elektron bazaya yerləşdirilmişdir. Bu proses zamanı kataloq kartoçkaları, onun şöbələrini, bölmələrini, ayrı-ayrı rubrikalarını göstərən kataloq ayrıcları, elm sahələrini əhatə edən başlıqlar toxunulmaz olaraq saxlanılır.

Oxucuya tez və vaxta qənaət etməklə xidmət göstərmək kitabxanaçıdan kitabxana fondunu, kitabxana resurslarını, həmçinin kitabxananın məlumat-axtarış sistemlərini, kitabxana kataloqlarını, o cümlədən elektron vasitələri, kitabxana-informasiya



texnologiyalarını dərindən bilməyi tələb edir. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının oxucularının əksəriyyətini təsadüfi tələbatçılar yox, ardıcıl mütaliəçilər təşkil edir. Bunlar elmi mərkəzlərdə, elmi tədqiqat institutlarında, ali məktəblərdə fəaliyyət göstərən elmi işçilər, tədqiqatçılar, professorlar, elmlər doktorları, fəlsəfə doktorları, aspirantlar, doktorantlar, magistrlər, tələbələr və müəllimlərdir. Bu qrup insanlar öz ömürlərini bilavasitə elmi-tədqiqat prosesləri ilə bağladıqlarından geniş mütaliə etmək, müqayisələr aparmaq, şəxsi təhsil işini ardıcıl davam etdirmək zərurəti qarşısındadırlar.

Ayrı-ayrı oxucu qruplarına diferensial xidmət göstərmək məqsədilə Milli Kitabxananın oxu zalları elm sahələrinə, oxucu qruplarına, ədəbiyyatın növünə, nəşr dillərinə görə ixtisaslaşmışdır. Oxu zallarında vaxtaşırı yeni ədəbiyyat, əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgiləri təşkil edilir. Oxu zallarının yardımçı fondları oxucu sorğuları əsasında komplektləşdirilir. Hər bir zalda oxuculara verilən rədd cavablarının uçotu jurnalı vardır və burada oxucular tərəfindən soruşulan və kitabxanada olmayan ədəbiyyatın uçotu aparılaraq fondun yenidən komplektləşdirilməsində və ya növbəti cari komplektləşdirmədə istifadə olunur.

Kitabxananın Humanitar elmlər zalında artıq bir neçə ildir ki, Azərbaycan və rus dillərində "Azərbaycan Respublikasının qanunvericiliyi" onlayn məlumat bazası oxucuların istifadəsinə verilmişdir.




**“Azərbaycan Respublikasının qanunvericiliyi” onlayn məlumat bazası**

Bu bazanı www.qanun.info - (Azərbaycan dilində www.consultinq.minimax.az- (Rus dilində) internet səhifəsinə daxil olmaqla əldə etmək olar.

Azərbaycan Milli Kitabxanası öz elektron fondunu genişləndirmək məqsədi ilə elektron kitabxananın xarici elektron informasiya ehtiyatları ilə komplektləşməsini oxucuların sorğusu əsasında həyata keçirərək zəngin axtarış imkanlarına malik, dünyanın və Rusiyanın aparıcı elmi jurnallarının elektron versiyasını əhatə edən “elibrary.ru” elektron elmi kitabxanasının rusdilli informasiya ehtiyatlarına abunə olmuşdur.





**Oxucu elibrary.ru elektron elmi kitabxanasının rusdilli informasiya bazasından istifadə edərkən (Humanitar elmlər zalı)**

Elibrary.ru platformasında Rusiyanın universal xarakterli (müxtəlif elm sahələrinə dair) elmi jurnallarının elektron versiyalarının tam mətnlərindən oxucuların istifadəsi məqsədi ilə kitabxananın elmi zallarında – Dövri mətbuat, Humanitar elmlər, Dəqiq və Texniki elmlər zallarında, Lokal şəbəkədən istifadə üzrə oxu zalında olan kompyuterlərə yüklənmiş və oxucuların istifadəsinə verilmişdir.



**elibrary.ru elektron elmi kitabxanasının istifadəçisi (Texniki elmlər zalı)**

Bu gün oxucular qısa zaman ərzində daha çox informasiya əldə etmək istəyirlər. Bu baxımdan kompyuterlərin, telekommunikasiya sistemlərinin, surətçıxarma texnikasının kitabxana xidmətinə daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki yeni texnika və texnologiya kitabxana şəraitində sənədlərin asan və tez əldə edilməsinə kömək göstərməklə bərabər, həm də əldə edilən bir çox materialların ev şəraitində istifadəsinə imkan verir.

Müasir tələblərə cavab verən Elektron resurslardan istifadənin təşkili bölməsində oxucu sorğusu əsasında çox qısa müddət ərzində ən çox istifadə olunan kitabların, dövri mətbuat nümunələrinin, dissertasiyaların elektron versiyaları yaradılır və surəti çıxarılaraq oxuculara verilir. Kitabların, dövri mətbuatın, dissertasiyaların elektron versiyalarının yaradılması rəqəmli fotoaparatlardan



istifadə olunaraq hazırlanmış xüsusi qurğular vasitəsi ilə yerinə yetirilir. İstənilən ədəbiyyatın lazım olan səhifələri həmin qurğu vasitəsilə çəkilir, qrafik proqramlarda işlənir, çap edilərək oxuculara verilir. Eyni zamanda həmin ədəbiyyatın tam elektron versiyaları yaradılaraq kitabxananın lokal kompyuter şəbəkəsinin məlumat bazasına daxil edilir. Bu da onlardan gələcəkdə digər oxucuların da istifadə edə bilməsinə şərait yaratmış olur. Oxuculara xidmət işində surətçıxarma vasitələrinin əhəmiyyəti olduqca böyükdür. Lakin surətçıxarma aparatlarında proseslər termik əsasda aparıldığından çap məhsullarının mühafizə vəziyyətinə mənfi təsir göstərir. Buna görə də Milli Kitabxanalarda qorunan qiymətli çap əsərlərinin, arxiv materiallarının kserosurətlərinin çıxarılması məqsədəmüvafiq sayılmır və rəqəmsal fotoaparatlardan istifa-



**Elektron resurslardan istifadənin təşkili bölməsində kitabın rəqəmsal fotoaparat vasitəsilə çəkilməsi və işlənməsi prosesi**

dəyə əsaslanan qurğulara daha çox üstünlük verilir. Müxtəlif texniki vasitələrin köməyi ilə oxucu materialları konspektləşdirmək, köçürmək işlərindən azad olur və müvafiq yazılardan (fotosurətlərdən) evdə istifadə etmək imkanı əldə edir.

Surətçıxarmanın rəqəmsal fotoaparatlar vasitəsilə həyata keçirilməsi kitabxana fondlarında qorunub saxlanan arxiv və nadir fond kitablarının zədələnməsinin qarşısını alır və onların etibarlı konservasiyasını təmin edir.

Milli Kitabxananın tələbələr üçün nəzərdə tutulmuş ən böyük oxu zalında Yardımçı fond bölməsi fəaliyyət göstərir. Oxucuya xidmət işində yardımçı fondların üstünlükləri çoxdur. Yardımçı fondlar oxucu sorğusu əsasında komplektləşdirildiyi üçün ümumi fonda ədəbiyyat sifariş verilmir. Oxucunun sifarişi birbaşa ümumi oxu zalının yardımçı fondundan onun biletinə yüklənir. Statistik göstəricilərə görə bölmənin yardımçı fondundan gün ərzində orta hesabla 800-850 oxucu istifadə edir.



**Ümumi oxu zalı**



Əvvəllər yardımçı fondda daha çox istifadə olunan kitabların mütaliəsi üçün növbələr yaranırdı. Bu çətinliklərin aradan qaldırılması məqsədilə 2011-ci ildən etibarən yardımçı fond bölməsində mühafizə olunan kitabların elektron versiyalarının yaradılması işinə başlanılmışdır. Bu kitabxana fondunda olan kitabların elektron versiyalarından daha çox oxucunun eyni zamanda istifadəsinə imkan yaradır.

2012-ci ildən etibarən kitabxanada oxucuların lokal şəbəkədə yerləşdirilmiş kitabların tammətnli elektron versiyalarından eyni zamanda istifadəsi üçün müasir tələblərə cavab verən yeni oxu zalı yaradılmışdır. "Lokal şəbəkədən istifadə üzrə oxu zalı" bölməsində daha çox oxucunun, eyni zamanda kitabxananın lokal şəbəkəsində yerləşdirilmiş elektron resurslardan istifadə imkanları artmışdır. Burada eyni zamanda 24 kompyuter və 5 elektron kitab vasitəsilə oxuculara xidmət göstərilir və onların sorğuları tam şəkildə ödənilir. Lokal şəbəkədən istifadə üzrə oxu zalı yaradıldıqdan sonra kitabxananın ümumi oxu zalının yardımçı fondunda mühafizə olunan kitabların digər oxucular tərəfindən təkrar sifarişi zamanı oxucular həmin zala yönəldilirlər. Bu zalda həmçinin tammətnli elektron versiyası hazırlanaraq kitabxananın elektron məlumat bazasında yerləşdirilən və müəllif hüquqları haqqında qanunun tələblərinə müvafiq olaraq kitabxananın qlobal internet vasitəsilə oxucuların istifadəsinə təqdim edə bilmədiyi bütün elektron resurslardan istifadə etmək və yaxud onları tirajlayaraq kitabxanadan kənarda istifadə etmək imkanı yaradılmışdır.

Burada həmçinin "Azərbaycan Virtual kitabxanasına" daxil olan elektron resurslardan, digər respublika və dünya kitabxanalarının elektron resurslarından də sərbəst şəkildə istifadə etmək, onların surətlərini çıxartdırmaq da mümkün olur.

Kitabxana xidmətinin inkişafı həcminin xidmət sahələrinin ar-

tırılmasını, istifadəçilərə yeni xidmət növləri təklif etməyi tələb edir. Xidmət işində ciddi köməyə ehtiyacı olan oxucularla kitabxanaçının təması çox vacibdir. Bu isə kitabxanaçıdan həm mütəxəssis kimi, həm də ümumi elmi bilik baxımından ciddi hazırlıq tələb edir.



**Lokal şəbəkədən istifadə üzrə oxu zalı**

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Milli Kitabxananın fəaliyyətində mühüm rolu olmuşdur. Bu proqramda nəzərdə tutulmuş əsas vəzifələri rəhbər tutaraq kitabxana öz fəaliyyətində kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi sərvətlərin toplanılması, mühafizəsi və onlardan istifadə imkanlarının artırılması sahəsində mühüm addımlar atmışdır. Milli Kitabxananın maddi-texniki təminatı xeyli yaxşılaşmış, müasir tipli informasiya texnologiyaları ilə təchizatı gücləndirilmiş, Kitabxana tərəfindən kitabxana-informasiya texnologiyalarının tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin





**Lokal şəbəkədən istifadə üzrə oxu zalı (Elektron kitab vasitəsilə mütaliə)**

dünya standartları səviyyəsinə çatdırılmışdır. Elektron kataloq və elektron kitabxananın daha da təkmilləşməsi, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, beynəlxalq informasiya mübadiləsinin təşkili kimi mühüm məsələlər həyata keçirilmişdir. İnformasiya texnologiyalarının tətbiqi oxuculara xidmət baxımından bir çox prosedurların sadələşdirilməsinə imkan vermiş, avtomatlaşma nəticəsində oxucuların ədəbiyyatı əldə etmək üçün sərf etdikləri vaxtı minimuma endirmək mümkün olmuşdur. Belə ki, ənənəvi üsulla oxucu ədəbiyyatı sifariş vermək üçün kataloq qarşısında xeyli vaxt sərf etməli olurdu. Kitabxananın elektron kataloqu isə oxuculara tələb olunan ədəbiyyatın qısa müddətdə tapılmasını və əldə edilməsini təmin edir.

2012-ci ildən etibarən Milli Kitabxanada elektron kataloq, elektron kitabxana xidmətləri kimi oxucuya kitab verilişi prosesi də avtomatlaşdırılmışdır. Oxucu şəxsiyyətini təsdiq edən sənədi

qeydiyyat bölməsinə təqdim edir, iki dəqiqə ərzində ona elektron bilet hazırlanır. Qeydiyyat kartoçkasını doldurmağa ehtiyaç qalmır. Səxsiyyət vəsiqəsi əsasında oxucuya dair bütün məlumatlar kompyuterdə elektron kartoçkanın müvafiq sahələrində qeyd edilir və oxucuların vahid elektron bazasında yerləşdirilir. Skaner vasitəsilə şəxsiyyət vəsiqəsindəki fotoşəkil elektron biletə köçürülür.



**Elektron biletin hazırlanma prosesi**

Cart READER (kart oxuyucusu) cihazında elektron biletə alternativ kod verilir və proqramda müvafiq sahədə qeyd olunduqdan sonra elektron bilet xüsusi printerdə çap olunaraq oxucuya təqdim olunur.

Nəzarət-buraxılış məntəqəsinə yaxınlaşan oxucu elektron bileti turniketə yaxınlaşdırır və onu kartoxuyan cihaza toxunduraraq içəri daxil olur və bu zaman oxucunun gəlişi avtomatik qeyd olunur. Elektron oxucu biletini kənar şəxslərə vermək, onu əzilməkdən və kənar fiziki təsirlərdən qorumaq vacibdir.





**Oxucunun elektron bilet vasitəsilə turniketdə qeydiyyatdan keçməsi**

Növbəti mərhələ elektron kataloqda ədəbiyyatın axtarışı və sifarişlərin verilməsidir. Bu mərhələdə oxucu növbətçi biblioqraflara yaxınlaşaraq onların köməyi ilə elektron kataloqda istədiyi kitabı seçir və oxucu biletinin nömrəsini, həmçinin parolu qeyd edərək ədəbiyyatı sifariş verir. Elektron lövhədə sifarişinin qəbul olunduğuna əmin olduqdan sonra sifarişinin icrasının təmin olunduğunu elektron lövhə vasitəsilə izləyir. Sifariş icra olunduqdan dərhal sonra elektron lövhədə oxucunun sifariş etdiyi kitabın məşğul olmaq istədiyi zalda onu gözləməsi barədə məlumatı oxuduqdan sonra müvafiq zala yaxınlaşaraq onu götürür.

Oxucu hər hansı bir ədəbiyyatı sifariş etdikdə fondda quraşdırılmış xüsusi qurğu vasitəsilə sorğu qəbul olunur, tələbnamə çap edilir, kitabxanaçı tərəfindən ədəbiyyatın kitab verilişi məntəqəsinə çatdırılması təmin edilir.

Kitab verilişi məntəqəsində oxucunun sifariş verdiyi kitabın məlumatları onun elektron biletinə yüklənilir. Oxucu kitabı təhvil



**Elektron kataloqda axtarış prosesi**

verərkən ədəbiyyat biletdən silinir. Kitabları geri qaytarmayan oxucular turniketdən kənara buraxılmırlar.

Milli Kitabxanada fondların mühafizəsi üçün mühüm tədbirlər



**Kitab verilişi prosesinin avtomatlaşdırılmasının təqdimatı**





**Kitab fondunda onlayn sifarişin qəbulu**

həyata keçirilir. Respublikamızda uzun illərdən bəri formalaşmaqda olan kitabxana fondları içərisində Milli Kitabxananın universal məzmunlu kitab fondu xüsusi yer tutur. Kitab fondlarında bütün elm sahələri üzrə kitablar, jurnallar, ardı davam edən nəşrlər, qəzetlər, avtoreferatlar (Azərbaycan və rus dilində) toplanır. Azərbaycan Milli Kitabxanasının ən mühüm vəzifələrindən birini kitab fondunun mühafizə məsələsi təşkil edir.

Milli Kitabxananın fondunda saxlanan nəşrlərin tipindən və növündən asılı olaraq kitabxana fondunun strukturunda ixtisaslaşdırılmış müxtəlif fondlar: kitab fondu, qəzet fondu, jurnal fondu, dissertasiyalar fondu, avtoreferatlar fondu, musiqi ədəbiyyatı fondu, not əlyazmalar fondu, nadir kitablar fondu var. Bu gün Milli Kitabxananın fondunda 4 578 116 nüsxə ədəbiyyat toplanmışdır ki, bunun da 2 391 022 nüsxəsi kitab və kitabçalar, 2 187 094 nüsxəsi isə digər sənədlərdir. Azərbaycan Milli Kitabxanasının fondundan müxtəlif tərkibli oxucular: elmi tədqiqatçılar, tələbələr və s. istifadə edirlər.

Oxucu tərkibinin müxtəlifliyi kitabxana fondunun formalaş-



**Kitab verilişi**

masını daim stimullaşdırmış, fondun təkmilləşdirmə istiqamətinin müəyyənləşdirilməsinə ciddi təsir göstərmişdir. Milli Kitabxananın fondu universaldır. Oxucuya xidməti operativləşdimək, kitabsax-



**Kitabın qaytarılması prosesi**



layıcıdan qənaətcil istifadə üçün kitabxananın kitab fondunda format-inventar düzülüşündən istifadə olunur. Bu cür düzülüş kitabları ölçüsünə görə, ölçü daxilində isə inventar nömrəsinə görə qruplaşdırmağa imkan verir. Zəngin kitab fonduna malik Milli Kitabxanada Azərbaycan kitab mədəniyyətinin ilk nümunələri – daşbasma üsulu ilə çap olunmuş və ilk çap kitabları, XIX əsrin dövri mətbuat nümunələri toplanmışdır.

2013-cü ildə Milli Kitabxananın 90 illik yubileyi ərəfəsində Nadir kitablar fondu kitabxananın binasının 2-ci mərtəbəsində geniş və hər cür şəraiti olan sahəyə köçürülmüş, orada mühafizə olunan kolleksiyaların ruhuna uyğun mebel və avadanlıqlarla təchiz olunmuşdur. Fond müstəqil şöbəyə çevrilmiş, kitabxananın muzeyi yaradılaraq "Nadir kitablar və Kitabxana muzeyi" şöbəsi adlandırılmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanada olmuş və buraya ilk gəlişində kitabxanaya öz şəxsi kolleksiyasından 300 nüsxəyədək çox qiymətli kitablar bağışlamışdır ki, həmin kitablar da Milli Kitabxananın ən qiymətli kolleksiyası kimi Nadir kitablar və Kitabxana muzeyi şöbəsində mühafizə və nümayiş olunur. Kitabxana ilə tanış olmağa gələn bütün qonaqlar bu qiymətli kolleksiya ilə böyük maraqla tanış olurlar və kitabların ulu öndər Heydər Əliyevin dünya şöhrətli siyasətçi və müstəqil Azərbaycanın qurucusu kimi formalaşmasında əhəmiyyətli rol oynadığının bir daha şahidi olurlar. Məktəblilər və gənclər bu kolleksiyaya böyük maraqla baxırlar.

Nadir kitablar və Kitabxana muzeyi şöbəsində dünyanın 20-yə yaxın xalqının dilində ən qədim kitablar, muxtəlif elm sahələrinə aid fundamental tədqiqat əsərləri, qiymətli sorğu ədəbiyyatları qorunub saxlanılır. Miniatür kitab kolleksiyası, nəfis tərtibatlı kitab nüsxələri oxucularda böyük maraq doğurur. Nadir kitablar fondun-



**Nadir kitablar və Kitabxana muzeyi şöbəsi**

da dünyanın ən qədim nəşriyyatlarından biri olan "Elzevir qardaşları nəşriyyatı"nın kolleksiyası da saxlanılır. Bu kolleksiyanın latın dilində "Homerin Hesiodla mübahisəsi" (Anno, 1573) kitabını kitabxananın ən qədim kitabı kimi göstərmək olar.

Azərbaycan Milli Kitabxanasının nadir kitablar kolleksiyasında XVI əsrə aid qədim çap kitabları içərisində nadir nəşrlərdən biri kimi "Türklər haqqında 10 nəsihət" (Yena şəhəri, 1595, alman dilində) hesab olunur. Kitabda türklərin mənşəyindən, zəfərlərindən və uzun müddət davam edən xoşbəxt həyatlarından bəhs olunur. Fondda "Türkiyə tarixindən" (latın dilində, 1599), "Müqəddəsliyin xoşbəxtliyi" (latın dilində, 1634), "Türklərin mənşəyi haqqında" (latın dilində, 1614), Azərbaycan ədəbiyyatı nümunələrindən N.Gəncəvinin "Sirlər xəzinəsi" (1855, fars dilində), Xaqani Şirvaninin "Külliyyat"ı (fars dilində), N.Gəncəvinin "Xəmsə"si (Tehran, 1883, fars dilində), Mir Möhsün Nəvvabın "Divani-farsi" əsəri (Şuşa,





1897), dünya ədəbiyyatının nümunələrindən "Kəlilə və Dimnə" (1911), Firdovsinin "Şahnamə"si (1859, fars dilində), Sədi Şirazinin "Külliyyat"ı (1891), Hötenin əsərləri, Şekspirin əsərlər toplusu və s. ədəbiyyatlar, miniatür kitablar və unikal nəşrlər toplanmışdır. Kitabxana fondunda Qafqazşünaslığa, xüsusilə də Azərbaycanşünaslığa dair 600-dən yuxarı kitab və jurnal materialı saxlanılır. Həmin nəşrlər Qafqazda yaşayan xalqlar haqqında, əsasən də, Azərbaycan xalqı, onun tarixi, coğrafiyası, ədəbiyyatı, etnoqrafiyası, mədəniyyəti, milli xüsusiyyətləri və adət-ənənələri haqqında zəngin məlumat verir.

Azərbaycan ədəbiyyatının arxivi şöbəsinin fondunda məzmun və tarixilik baxımından bir sıra qiymətli kitablar vardır. Belə nadir kitablardan A.A.Bakıxanovun 1831-ci ildə Tiflisdə nəşr olunan "Qanuni-Qüdsi", M.Füzulinin 1849-cu ildə Təbrizdə çap olunan "Divan"ı, "Bəngü-Badə" (1845) və "Leyli və Məcnun" (1858) əsərləri, M.F.Axundovun "Təmsilatı"nın (1860) Tiflis nəşri və başqa əsələrin adını qeyd etmək olar. Bundan başqa, kitabxanada Azərbaycan bəstəkarlarının əlyazmalarının "Qızıl Fondu" mövcuddur. Fonoteka fondunda 30 minə yaxın səsyazması qorunub saxlanılır. Kitabxanada fondların mühafizəsi üçün mühüm tədbirlər həyata keçirilir.

2014-cü ildən kitabxananın fondlarında müasir tipli mobil kitab rəflərinin quraşdırılması işlərinə başlanılmışdır. Tozu, rütubəti, işığı buraxmayan və qiymətli kitabların günəş işığından və digər kənar təsirlərdən qorunmasına xidmət edən mobil kitab rəfləri eyni zamanda, yeni kitabların yerləşdirilməsi imkanlarının da iki dəfə artırılmasına kömək edir. Kitabxanada Avropa standartlarına uyğun işıqlandırma, havalandırma və rütubət rejimini tənzimləyən avadanlıqlar quraşdırılmış, qazla işləyən avtomatlaşdırılmış yanğınxəbərverici və yanğınsöndürücü sistem quraşdırılaraq istifadəyə verilmişdir. Fondun xüsusi, mobil kitab rəflərində yerləşdiril-





**Mobil kitab rəfləri**

məsi həm oxucuya xidmət işini yaxşılaşdırır, həm də qiymətli kitab kolleksiyalarının mühafizəsinə xidmət edir.

Hazırda kitabxananın Azərbaycan ədəbiyyatının milli arxiv fondunun, Azərbaycan ədəbiyyatı fondu və Azərbaycan bəstəkarlarının not əlyazmaları fondunun yüksəkkeyfiyyətli avadanlıqlarla təchiz olunmuş müasir tipli mobil kitab rəflərinə köçürülməsi təmin olunmuşdur və bu iş davam etdirilir. Azərbaycan Milli Kitabxanasının fondunda olan ədəbiyyatların qorunub saxlanılmasında, onlardan oxucuların sistemli ictimai istifadəsinin təşkilində kitabxanaçıların əməyi ilə bərabər dövlətin qayğısı da mühüm əhəmiyyətə malikdir.

Bu gün Azərbaycan dövlətinin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin milli-mənəvi sərvətlərimizin mühafizəsinə və təbliğinə, bu missiyanın fəal iştirakçısına çevrilən Milli Kitabxanaya diqqəti və qayğısı sayəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin yaxından dəstəyi ilə Milli Kitabxanada modernləşmə işləri uğurla davam etdirilir və dünya kitabxanalarının qabaqcıl iş təcrübəsini öyrənib tətbiq etmək istiqamətində ciddi tədbirlər həyata keçirilir.

## Ədəbiyyat

1. **Azərbaycan Milli Kitabxanası**: [Fotoalbom] /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; layih. rəhb. və ön sözün müəl. Ə.Qarayev; tərt. K.Tahirov, G.Səfərəliyeva.- Bakı: Təhsil, 2013.- 161 s., [14] v.

2. **Xələfov, A.** Kitabxana və cəmiyyət: [monoqrafiya] /Abuzər Xələfov; elmi red. L.Məmmədova, K.Aslan.- Bakı: Azərnəşr, 2011.- 302, [7] s.

3. **İsmayılova, Ə.** XXI əsrin informasiya məkanında oxuculara xidmət /Ədibə İsmayılova //Mədəni həyat.- 2013.- №8.- S.32-34.

4. **Kitabxana işinə dair rəsmi sənədlər:** Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. K.Tahirov; red. A.Abdullayeva.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2015.- 199, [1] s.

5. **Tahirov, K.** Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı /Kərim Tahirov //Xalq qəzeti.- 2010.- 7 may.

6. **Tahirov, K.** Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /Kərim Tahirov; elmi red. A.Xələfov; rəyçi.: K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Bakı Universiteti, 2013.- 212 s.

7. **Tahirov, K.** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər /Kərim Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red.: N.İsmayılov, K.Aslan.- Bakı: [Ulu], 2008.- 218 s.

8. **Azərbaycan Milli Kitabxanasının hesabatları.**

9. **Исмайлова, А.** Информационные запросы общества и новые формы обслуживания читателей в Азербайджанской



национальной библиотеке им. М.Ф.Ахундова /Адиба Исмайлова //Вестник Библиотечной Ассамблей Евразий.- 2015.- №3.- с. 50-52

10. **Исмайлова, А.** Национальная библиотека – богатейшая сокровищница знаний /Адиба Исмайлова //Библиотечноное дело-2016: Библиотечно-информационные коммуникации в поликультурном пространстве. Скворцовские чтения. Материалы двадцать первой международной научной конференции (Москва, 27–28 апреля 2016 года).- М.: МГИК.- 2016.- С.121-125.

4.00 Azn (46)

**Ədibə İsmayılova**

**Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi**
**(Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında)**

Nəşriyyat redaktoru: Mehriban Cəfərova

M.F.Axundov ad. Milli Kitabxana
Sifariş: № 13
Çapa imzalanmışdır: 13.05.2016
Tiraj: 200
Ünvan: Az-1000 Bakı şəh., Xaqani küç. 29;
E-mail: contact@anl az.
URL: www.anl.az

Çapa imzalanmışdır: 14.05.2016. Formatı 60x84 1/16.
Həcmi 3,5 ç.v. Sifariş № 09.

«Zərdabi-Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: iş (012) 498-79-62, mob. (050; 070) 344 76 01
e-mail: zerdabi.neshr@gmail.com